AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**VÜSAL MÜBARIZ OĞLU QULIYEV**

# "AZƏRBAYCAN RESPUBLIKASINDA YOXSULLUĞUN VƏ SOSIAL QEYRI-BƏRABƏRLIYIN AZALDILMASININ HÜQUQI TƏNZIMLƏNMƏSININ TƏKMILLƏŞDIRILMƏSI"

**İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəni
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2013**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi hüquq" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: iqtisad elmləri doktoru, professor
**Fərhad Pənah oğlu Rəhmanov**

**Rəsmi opponentlər**: iqtisad elmləri doktoru, professor
**Kamil Ağazaman oğlu Şahbazov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Fuad Ələkbər oğlu Mürşüdli**

**Aparıcı təşkilat**: **Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu**

Dissertasiyanın müdafiəsi "21___"06___ 2013-cü il saat $14^{00}$-da Azərbaycan Dövlət İqtisad Universitetinin D 02.051 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 6, Azərbaycan Dövlət İqtisad Universiteti.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___"___________ 2013-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi, i.e.n., dos. Z.İ.Mustafayeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

***Tədqiqatın aktuallığı***. Ölkəmizin istehsal sferasında başlanmış iqtisadi islahatlar prosesi son zamanlar daha artıq dərəcədə sosial yönüm alır, sosial problemlərin həllində iqtisadiyyatın bütün sektorlarının səmərəli qarşılıqlı fəaliyyət mexanizminin işlənib hazırlanması, yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılmasına adekvat olan iqtisadi və hüquqi bazanın yaradılması zərurətinə gətirib çıxarır.

Yoxsulluq, cəmiyyətin sosial diferensiallaşması və stratifikasiyası bazar iqtisadiyyatının immanent, daxilən xas olan atributlarıdır. O, təkcə keçid iqtisadiyyatlı və zəif inkişaf etmiş ölkələrdə deyil, yüksək inkişaf etmiş ölkələrdə də mövcuddur. İstənilən dövlətdə əhalinin sosial-iqtisadi təbəqələşməsinin, iqtisadi qeyri-bərabərliyin və yoxsulluğun səviyyəsi, xarakteri – onun vəziyyətinin mühüm xarakteristikasıdır, çünki bunlar, digər dövlətlərlə müqayisədə, həmin dövlətin nüfuz və statusunu əks etdirir, əhalinin malik olduğu həyat keyfiyyətini təminetmə imkanları spektrini nümayiş etdirir. Respublika əhalisinin gəlirlərinin diferensiallaşmasının yumşaldılmasına, yoxsulluğun azaldılmasının hüquqi tənzimlənməsinin təkmilləşdirilməsinə həsr olunmuş tədqiqatlar olduqca aktualdırlar. Respublikanın sosial-iqtisadi inkişafının sürətlənməsi bir çox cəhətdən bu problemlərin həllindən asılıdır.

Bununla belə, sosial təbəqələşmə, sosial sferada islahatların hüquqi təminatı, yoxsulluğun azaldılmasının tənzimlənməsinin təkmilləşdirilməsi məsələləri xüsusi ədəbiyyatda kifayət qədər tədqiq olunmayıb. Tədqiqatların əksəriyyətində başlıca diqqət sosial sferanın və həyat səviyyəsinin müxtəlif aspektlərinə yetirilir.

Yoxsulluğun azaldılmasının hüquqi tənzimlənməsi, sosial qeyri-bərabərliyin azaldılması mexanizmlərinin təkmilləşdirilməsi sahəsində kompleks elmi işləmələrin olmaması əhalinin rifahının yüksəldilməsi problemlərinin həllinə mənfi təsir göstərir. Azərbaycanda yoxsulluğun və sosial qeyri-bərabərliyin hüquqi tənzimlənməsi probleminin müasir vəziyyətinin hərtərəfli öyrənilməsi zərurəti, gələcəkdə onun təkmilləşdirilməsi istiqamətində tədbirlər sisteminin bundan sonra da işlənib hazırlanmasına və əsaslandırılmasına olan ehtiyac dissertasiyanın seçilmiş mövzusunun aktuallığını şərtləndirdi.

***Problemin öyrənilmə səviyyəsi***. Yoxsulluq, onun təbiəti və səbəbləri həmişə elmin diqqət mərkəzində olmuşdur. Azərbaycanda sosial inkişaf və yoxsulluğun azaldılması siyasəti sahəsində Ə.Əlirzayev, N.Quliyeva, R.Mehdiyev, M.Məmmədova, V.Novruzov, H.Rəcəbli, F.Rəhmanov, A.Şəkərəliyev kimi alimlərin əsərləri daha çox əhəmiyyət kəsb edir.

Respublikamızda bazar islahatlarının hüquqi təminatı problemləri A.A.Nadirov, Z.Ə.Səmədzadə, Ş.H.Hacıyev, İ.Alıyev, S.Salahov və b. alimlərin əsərlərində açıqlanır.

Müxtəlif dövrlərdə yoxsulluq və qeyri-bərabərlik problemlərinə zaman-zaman Platon, Aristotel, Konfutsi, M.Veber, P.Burdye, T.Parsons, V.Pareto, E. Dürkheym, P.Sorokin, T.Qobbs və b. tədqiqatçilar diqqət yetirmişlər. A.Smit, T.Maltus, D.Rikardo, C.S.Mill, P.-J.Prudon kimi alimlərin əsərlərində yoxsulluğun təzahürünün sosial-darvinist modeli əksini tapmış, eqalitarist istiqaməti (yoxsulluq bölgü sisteminin nəticəsi kimi) J.Reklü və K.Marksın konsepsiyasında təqdim olunmuşdur. Yoxsulluq problemlərinin empirik tədqiqatları ilə F.İden, Ç.But, S.Rountri (ən aşağı sinfin, yoxsulluğun struktur əlaqələrinin tədqiqi), F.Le Ple, H.Şmoller məşğul olmuşlar. İnkişaf etmiş ölkələrdə yoxsulluq problemi öz kəskin aktuallığını itirməsinə baxmayaraq, o, qərb elmində mərkəzi problemlərdən biridir. K.Oppenheym, E.Hiddens, O.Lüis, A.Atkinson, N.Teyl, A.Sen və b. müasir yoxsulluğun təzahür xüsusiyyətlərini, onun səbəblərini, sosial tərkibini, miqyas və nəticələrini tədqiq edir. Qeyri-bərabərlik problemləri O.Kont, H.Spenser, K.Marks, H.Zimmel, M.Veber, E.Dürheym, V.Pareto, P.Sorokin, V.Afanasyev, L.Abalkin, V.Bobkov, D.Qvişiani, T.Zaslavskaya, V.Jukov, Q.Osipov, Q.Prudenski, N.Rimaşevskaya tərəfindən tədqiq edilimişdir. Həyat səviyyəsinin aşağı olması səbəbləri, yoxsulluğun ölçülməsi və ləğvi mexanizmləri A.Atkinson, C.Qrir, R.Kanbur, A.Sen, P.Taunsend, İ.Torbeke, C.Foster, A.Kiruta, M.Revellyon, A.Şevyakov, E.Şorroks, L.Nivorojkina, L.Ovçarova, N.Rimaşevskayanın əsərlərində araşdırılmışdır.

Qloballaşma və inteqrasiya proseslərinin milli iqtisadiyyatın inkişafına, o cümlədən, həyat səviyyəsi, yoxsulluq və gəlirlərin qeyri-bərabərliyi dinamikasına təsirinin müsbət və mənfi effektləri Q.Vilyamson, A.Krey, P.Lindert, C.Seçs, C.Stiqlits, A.Uorner, Y.Şişkov və digər alimlərin əsərlərində üzə çıxarılır.

Bu problematikaya dair ədəbiyyat icmalından göründüyü kimi, əsərlərin əksəriyyətində tədqiqatçıların diqqəti yoxsulluğun tədqiqinin metodoloji problemləri üzərində cəmləşir, yoxsulluq miqyaslarının azaldılmasının funksional imkanlarının üzə çıxarılmasında praktik yanaşmalara üstünlük verilən əsərlər isə yox dərəcəsindədir. Sosial inkişafın hüquqi tənzimlənməsi prinsiplərinə bütöv bir makroiqtisadi yanaşma, hələ ki, təşəkkül tapmayıb. Sosial qeyri-bərabərliyin və yoxsulluğun azaldılmasının hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi problemlərinə həsr olunmuş tədqiqatlar öz inkişafının ilkin mərhələsindədirlər və natamam xarakter daşıyırlar.

Beləliklə, qeyd edilmiş problemlərin şübhəsiz aktuallığı, mühüm praktiki əhəmiyyəti və göstərilən problemlərin kompleks şəklində kifayət qədər işlənməməsi, onların mürəkkəbliyi və çoxcəhətliliyi, həmçinin, mübahisəli sualların mövcudluğu mövzu seçimini şərtləndirmiş, tədqiqatın məqsədini, vəzifə və metodlarını müəyyən etmişdir.

***Tədqiqatın obyekti*** kimi, yoxsulluq və sosial qeyri-bərabərlik hal-

ları, müasir Azərbaycanda onların iqtisadi və sosial xüsusiyyətləri çıxış edirlər.

***Tədqiqatın predmeti*** - yoxsulluğun və sosial qeyri-bərabərliyin ləğv olunması məqsədilə əhalinin həyat səviyyəsi və keyfiyyətinə dövlətin hüquqi təsir tədbirləri sistemidir.

***Tədqiqatın məqsəd və vəzifələri***. Dissertasiya işinin məqsədi – sosial qeyri-bərabərlik və yoxsulluq problemlərinin nəzəri tədqiqindən və bunun əsasında, respublikanın sosial yönümlü milli təsərrüfat sisteminin formalaşdırılması vəzifələri nəzərə alınmaqla, Azərbaycanda yoxsulluğun və sosial qeyri-bərabərliyin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsinə dair metodoloji yanaşmaların və əməli tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

Tədqiqatın məqsədi aşağıdakı qarşılıqlı əlaqəli məsələlərin qoyuluşunu və həllini şərtləndirdi:

- Azərbaycan və xarici iqtisadçıların yoxsulluq, sosial diferensiallaşma, sosial qeyri-bərabərlik problemlərinə baxışlarını və nəzəri yanaşmalarını ümumiləşdirmək və sistemləşdirmək;
- respublikada yoxsulluğun və sosial qeyri-bərabərliyin iqtisadi determinantlarının, onun təkrar yaranmasının milli xüsusiyyətlərinin, yoxsulluğun ləğv olunmasına kömək edən amillərin üzə çıxarılmasını və diaqnostikasını aparmaq;
- Azərbaycan iqtisadiyyatı reallıqlarına adekvat olan göstərici və metodlar seçimini əsaslandırmaq, bunların əsasında Azərbaycanda vəziyyətin kompleks iqtisadi-statistik təhlilini aparmaq;
- inkişafda olan və inkişaf etmiş ölkələrin yoxsulluqla mübarizədə dövlət siyasətinin məzmunundakı fərqləri aşkara çıxarmaq, yoxsulluğun və sosial qeyri-bərabərliyin hüquqi tənzimlənməsinin təkamül prosesini izləmək, xarici təcrübənin ölkə şəraitinə adaptasiya imkanlarının tənqidi təhlilini etmək;
- yoxsulların sosial müdafiəsinə ölkə praktikasında üstünlük təşkil edən yanaşmalara baxmaq, yoxsulluq həddindən aşağı olan ailələrin sayının azaldılmasında sosial müdafiə sisteminin real və potensial imkanlarını müəyyən etmək və bu sistemin təkmilləşdirilməsinin əsas istiqamətlərinə dair tövsiyələr hazırlamaq;
- yoxsulluq və sosial qeyri-bərabərlik indikatorlarının proqnoz hesablamalarının metodikasını işləyib hazırlamaq, təklif olunmuş metodikanın praktik yararlığını təcrübədə sınaqdan çıxarmaq;
- respublikada həyata keçirilən sosial siyasəti təhlil etmək, yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılmasının hüquqi mexanizmlərinin təkmilləşdirilməsinə dair tövsiyələr hazırlamaq.

***İşin nəzəri və metodoloji əsasları***. Tədqiqatın metodoloji əsası kimi – neokeynsçi və institusional tədqiqat metodologiyasının tətbiqinə əsaslanaraq, qoyulmuş problemin həllinə kompleks yanaşma çıxış edir.

Yeni məlumat tədqiqatçının seçdiyi üsullar – müşahidə, müqayisə, nəzəri modelləşdirmə, abstraktlaşdırma metodu ilə əldə edilir.

Yoxsulluğun başlıca determinantlarının, əhalinin gəlirlərinin formalaşması, bölgüsü, yenidən bölgüsü və istifadəsi proseslərinin tədqiqinə vahid sistemli-funk-sional yanaşmalar çərçivəsi daxilində qoyulmuş problemin öyrənilməsi zamanı aşağı-dakı üsullardan istifadə edilmişdir: informasiyanın emalının iqtisadi-statistik metodları, korrelyasiya-reqressiya təhlili, dinamik sıralar metodu, modelləşdirmə, ümumi elmi analiz və sintez metodlarının istifadəsi ilə qrafik interpretasiya metodu və s.

Dissertasiya tədqiqatında, bölgü münasibətlərində qeyri-mütənasibliklərin aşkara çıxarılmasına istiqamətlənmiş müasir elmi yanaşmalar yoxsulluq və gəlirlərin diferensiallaşması səviyyəsinin ölçülməsi zamanı tətbiq edilir.

***Tədqiqatin nəzəri bazası*** kimi, ilk növbədə, görkəmli mütəfəkkir və nəzəriyyəçilərin əsərləri, iqtisadçı alim və siyasi xadimlərin müasir iqtisadi situasiyanın qiymətləndirilməsinə dair mühüm əhəmiyyətli məruzə və çıxışları xidmət edir. Dissertasiya tədqiqatı ictimai qeyri-bərabərliyin fundamental konsepsiyalarına, makroiqtisadi və sosial siyasət, yoxsulluq, həyat səviyyəsi və sosial-iqtisadi stratifikasiya problemlərinin tədqiqi sahəsində ölkəmizin və xarici ölkə alimlərinin klassik və müasir əsərlərinə istinad edir.

***Tədqiqatın informasiya-empirik bazasını*** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları, MDB-nin bir sıra aparıcı sosioloji mərkəzlərinin tədqiqatlarının nəticələri, ekspert qiymətləndirmələri və tədqiqatçıların hesablamaları, həmçinin, ölkədə və xaricdə elmi ədəbiyyatda və dövri mətbuatda nəşr olunmuş materialların təkrar təhlili təşkil edir.

Dissertasiyanın mənbələr bazası bir neçə mənbələr qrupundan ibarətdir. Birinci və ən geniş qrupa Dünya Bankı himayəsi altında həyata keçirilən müxtəlif elmi layihələr daxildir. Bunlar – yoxsulluğun aradan qaldırılması və yoxsul əhali üçün xidmətlərin səmərəliliyinin artırılması məsələlərinə həsr olunmuş dünya inkişafı barədə xüsusi məruzələrdir. BMT İnkişaf Proqramının sifarişi ilə hazırlanmış insan inkişafı haqqında məruzələr, DST-nin, BƏT-nin, MDB statistika və iqtisadi orqanlarının materialları da qiymətli mənbələrdir.

Tədqiqatın normativ bazasını Azərbaycan Respublikasının sosial siyasət, əhalinin gəlirlərinin ölçülməsi və məşğulluq mexanizmlərinin tənzimlənməsi məsələlərinə dair normativ-hüquqi aktları, ortamüddətli və uzunmüddətli perspektivdə sosial-iqtisadi inkişaf proqramları, həmçinin, dissertasiya müəllifinin tədqiqatçılıq və əməli fəaliyyəti nəticəsində əldə etdiyi materiallar təşkil edir.

***Dissertasiya işinin elmi yeniliyi:***

- sosial qeyri-bərabərlik və yoxsulluq problemlərinə nəzəri-meto-

doloji yanaşmalar tədqiq olunmuş və ümumiləşdirilmişdir;

- respublikanın sosial-iqtisadi inkişafının müxtəlif mərhələlərində yoxsulluğun və sosial qeyri-bərabərliyin mahiyyəti və təzahürləri açıqlanmışdır;
- respublikada ilk dəfə olaraq, müxtəlif maddi təminat səviyyəli əhali qruplarının sosial-iqtisadi vəziyyətinin təhlili aparılmış, əhalinin sosial təbəqələşməsinə iqtisadi-demoqrafik amillərin təsiri qiymətləndirilmişdir;
- sosial inkişaf və yoxsulluğun azaldılması sahəsində milli proqramların həyata keçirilməsi zamanı aşkar olunmuş xüsusiyyətlər əsasında həmin proqramların hüquqi tərkibinin təkmilləşdirilməsinə dair tövsiyələr işlənib hazırlanmışdır;
- ilk dəfə olaraq, əhalinin gəlirlərinin diferensiallaşması xarakteristikalarının dinamikasının təsviri və proqnoz hesablamaları üçün funksional asılılıqlar aşkara çıxarılmışdır. Sosial sfera göstəricilərinin rifahın tədqiqinə və proqnozlaşdırılmasına müasir tələbləri nəzərə almaq imkanı verən variantlar üzrə proqnoz hesablamaları sxemi işlənib hazırlanmış və sınaqdan çıxarılmışdır. Sosial inkişaf göstəricilərinin iki variant üzrə proqnoz hesablamaları aparılmışdır;
- yoxsulluğun və sosial qeyri-bərabərliyin daha da azaldılmasına yönəlmiş sosial siyasətin prioritetləri müəyyənləşdirilmişdir;
- bu sahədə baş verən islahatları keyfiyyətcə qiymətləndirmək imkanı verən, yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılmasının hüquqi tənzimlənməsinin təkmilləşdirilməsinə dair iqtisadi, sosial və institusional xarakterli tədbirləri müəyyənləşdirən tövsiyələr hazırlanmışdır.

***Tədqiqatın nəzəri əhəmiyyəti.*** Dissertasiyanın məzmunu və nəzəri nəticələri tədqiq olunan problemin nəzəri anlama sərhədlərini genişləndirmək, yoxsulluq və sosial qeyri-bərabərlik, onların dəf edilməsi yolları barədə elmi təsəvvürləri dərinləşdirmək imkanı verir.

Tədqiqatın nəzəri əhəmiyyəti – dövlət proqramlarının yoxsulluğa və sosial qeyri-bərabərliyə təsirinin xarakter və nəticələrinin müəyyənləşdirilməsindən ibarətdir. Sosial qeyri-bərabərliyin çoxaspektli xarakterini nəzərə alan işdəki tədqiqatlar yoxsulluğun sistemli və tam monitorinqini aparan milli statistik və analitik agentliklərin metodoloji potensialını gücləndirmək imkanı verəcək.

Dissertasiya tədqiqatı zamanı əldə edilmiş müddəa, nəticə və təkliflər əhalinin sosial təminatının təkmilləşdirilməsinin nəzəri bazası kimi çıxış edə bilər.

Nəzəri nəticə və tövsiyələr ADİU-da tədris prosesində “İqtisadiyyatın hüquqi tənzimlənməsi”, “İctimai bölmənin iqtisadiyyatı”, “İqtisadiyyatın dövlət tənzimlənməsi” tədris kurslarının proqramlarının təkmilləşdirilməsi zamanı, həmçinin, “Sosial yardım proqramlarının idarəolunması”, “Yoxsulluq və sosial qeyri-bərabərlik: azaldılma və lokallaşdırıl-

masının hüquqi mexanizmləri" və digər xüsusi nəzəri kursların işlənib hazırlanmasında istifadə edilə bilər.

***Tədqiqatın praktiki əhəmiyyəti***. Tədqiqatın praktiki əhəmiyyəti onların olduqca vacib bir məsələnin – yoxsulluğun azaldılması məsələsinin həllinə istiqamətlənməsi ilə müəyyənləşdirilir. İşdəki materiallar dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının fəaliyyətində, diferensiallaşdırılmış sosial və iqtisadi siyasət sahəsində qanunvericilik aktlarının və konstruktiv tədbirlərin hazırlanması zamanı istifadə edilə bilər. Dissertasiya tədqiqatının nəticələri əhalinin sosial müdafiəsi sisteminin təkmilləşdirilməsinə yönəlmiş səmərəli tədbirlərin müvafiq mərkəzi və regional təşkilatlar tərəfindən hazırlanması məqsədilə istifadə edilə bilər.

***Tədqiqatın nəticələrinin aprobasiyası***. Tədqiqatın əsas müddəa və nəticələri müəllifin məruzə ilə çıxış etdiyi və açıq mətbuatda nəşr olunduğu 4 beynəlxalq, 2 respublika konfranslarında dinlənilmiş, müzakirə edilmiş və müsbət rəy qazanmışdır, o cümlədən, "Dünya iqtisadiyyatının inkişaf mərhələləri: tarixilik və müasirlik", Bakı, 2009; "İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemləri", Bakı, 2010; "Региональные проблемы преобразования экономики", Махачкала, 2010; "Azərbaycan-Macarıstan: mədəniyyətlərin dialoqu", Budapeşt, 2010; "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər, inkişaf meyilləri" Bakı, 2010.

Tədqiqatın nəticələri Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək və sosial problemlər üzrə elmi-tədqiqat və tədris mərkəzinin işləmələrində istifadə olunmuşdur (arayış № 105, 27 dekabr 2011-ci il).

***Nəşrlər***. Dissertasiya işinin əsas müddəa, nəticə və tövsiyələri ümumi həcmi 5,65 çap vərəqi olan 14 sayda elmi nəşrlərdə əks etdirilmişdir.

***Dissertasiyanın strukturu və həcmi***. Dissertasiyanın strukturu tədqiqatın məqsəd və vəzifələrinə cavab verir, onun predmetinin açılmasına yönəlmişdir və girişdən, üç fəsil, nəticə, 183 sayda ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir. Əsas mətn 188 səhifədən ibarətdir, tərkibində 22 şəkil, 31 cədvəl var, əlavədə 7 cədvəl 4 səhifədə yerləşdirilir.

## MÜNDƏRİCAT

Giriş
Fəsil 1. Yoxsulluğun və sosial qeyri-bərabərliyin öyrənilməsinin nəzəri-metodoloji əsasları
1.1. Yoxsulluğun və sosial qeyri-bərabərliyin öyrənilməsinə konseptual yanaşmalar
1.2. Yoxsulluğun və sosial qeyri-bərabərliyin indikatorları
1.3. Qloballaşma proseslərinin sosial qeyri-bərabərliyə və yoxsulluğa təsiri
Fəsil 2. Yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılmasının hüquqi

tənzimlənməsi sahəsində milli və xarici təcrübə
2.1. Yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılmasının hüquqi tənzimlənməsi mexanizmləri
2.2. Xarici ölkələrdə yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılması proqramları
2.3. Azərbaycan Respublikasında əhalinin sosial cəhətdən zəif olan təbəqələrinə dövlət dəstəyi vasitələri
Fəsil 3. Azərbaycan Respublikasında sosial qeyri-bərabərliyin və yoxsulluğun azaldılmasının hüquqi tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi
3.1. Sosial qeyri-bərabərliyin və yoxsulluğun azaldılması meyıllərinin təhlili
3.2. Sosial inkişaf və əhalinin gəlirləri göstəricilərinin diferensiallaşmasının proqnozu
3.3. Yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılmasının tənzimlənməsinin perspektiv yolları
Nəticə
Ədəbiyyat
Əlavələr

## DİSSERTASİYANIN ƏSAS MÜDDƏALARI

**1. Yoxsulluğun və sosial qeyri-bərabərliyin öyrənilməsinə konseptual yanaşmaların tədqiqi**

Tədqiqat işində anlayışlar aparatının və konseptual yanaşmaların formalaşması xüsusiyyətləri, həmçinin, yoxsulluğun və sosial qeyri-bərabərliyin öyrənilməsinin nəzəriyyəsi, metodologiya və praktikası tədqiq edilir. "Yoxsulluq" və "qeyri-bərabərlik" anlayışlarının genezisi öyrənilir və bu iqtisadi kateqoriyaların müəllifin özü tərəfindən anlanılması əsaslandırılır.

Dissertasiyada sosial qeyri-bərabərliyin tədqiqinin makroiqtisadi nəzəriyyələri, zənginliyin və yoxsulluğun yaranmasının müxtəlif sxemlərinin qurulması təhlil edilir. Qeyd olunur ki, yoxsulluğun statik bir hadisə (istehlakın lazımi səviyyədə olmaması) kimi öyrənilməsi barədə əvvəlki onilliklərdə formalaşmış ənənədən fərqli olaraq, yeni konsepsiya qeyri-bərabərliyin dinamik aspektləri ("istisna prosesi"), həyatda bir-birini doğuran neqativ halların üst-üstə düşərək toplanması nöqteyi-nəzərindən təhlili üzərində diqqəti cəmləşdirir. İşdə belə bir qənaət əsaslandırılır ki, müasir konsepsiyalar sosial siyasət sahəsində aktiv praktiki fəaliyyətə istiqamətlənmişdir.

Sosial transfertlər şəklində yoxsulluğa qarşı mübarizənin köhnə metodları ən yaxşı halda ən aşağı təbəqələrdə istehlak səviyyəsini yüksəltməyə imkan verir, lakin həmin təbəqələrin həyat şansını artırmır,

əslində onların zərərçəkmiş vəziyyətini və dövlətdən asılı olan iqtisadi statusunu konservasiya edir. Yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılmasının müasir strategiyaları diqqəti yoxsulluğu şərtləndirən amillər və onun ləğv olunması tədbirləri üzərində cəmləşdirməlidir. Bu amillər sırasında qloballaşma prosesləri, iqtisadi ehtiyatların istifadəsi xarakteri, iqtisadi sferada insanların dəyərləndirdikləri və motivasiyaları, sosial əlaqələrin qırılmasını və s. göstərmək olar.

Tədqiqat işində qeyri-bərabərliyin və yoxsulluğun tədqiqi praktikasında istifadə olunan göstərici, indikator və meyarlar (fond əmsalı, gəlirlərin diferensiallaşması əmsalı ($K_d$), Cini əmsalı, yoxsulluğun dərinliyi indeksi, yoxsulluğun kəskinliyi göstəricisi və s.) ətraflı tədqiq olunur, onların müsbət və mənfi cəhətlərinə baxılır.

Sosial qeyri-bərabərlik və yoxsulluq göstəricilərinin təhlilini yekunlaşdıraraq, belə bir qənaət əsaslandırılır ki, bu göstəricilər əsasında sosial-iqtisadi sistemin fəaliyyətinin səmərəliliyinin kriterial indikatorları müəyyən edilir. Sosial-iqtisadi sistem üçün hər hansı mühüm göstəricilərin konkret qiymətlərini kriterial indikatorlar kimi göstərmək mümkün deyil, lakin sosial səmərəliliyin meyarları kimi müəyyən hədlər seçmək olar. Bu göstəricilərin müəyyən etdiyi hüdudlardan kənarda sosial-iqtisadi sistem artıq sosial yönümlü sistem hesab edilə bilməz. Bu limit qiymətləri aşdıqda sosial gərginlik yaranır, milli təhlükəsizlik üçün təhdidlər artır.

**2. Qloballaşma proseslərinin sosial qeyri-bərabərliyə və yoxsulluğa təsirinin təhlili**

Aparılmış tədqiqat nəticəsində qlobal sosial-iqtisadi qeyri-bərabərliyin ilkin şərtləri açıqlanır və onların yoxsulluğun və qeyri-bərabərliyin azaldılması proseslərinə təsiri araşdırılır.

Müasir Azərbaycanda yoxsulluq və sosial qeyri-bərabərlik problemlərini öyrənərkən, bizim fikrimizcə, həm ümumilikdə dünya meyillərini, həm də ölkəmizin transformasiya edən cəmiyyətlərə mənsub olmasından və bazar münasibətlərinin inkişafı dövrünü yaşamasından irəli gələn spesifik xüsusiyyətlərinin nəzərə alınması zərurəti bizim tərəfimizdən əsaslandırılır.

Tədqiqat işində ölkələrarası qeyri-bərabərliyin dinamikasını ifadə edən qloballaşmanın əsas istiqamətləri və yeni tendensiyaları xüsusi olaraq vurğulanır. İşdə göstərildiyi kimi, qloballaşma sosial qeyri-bərabərliyə ikili təsir göstərir. O, bir tərəfdən "postiqtisadi cəmiyyətin" əlaməti hesab edilən prinsipcə yeni tipli sosial şərait yaradır; digər tərəfdən, sosial-iqtisadi qütbləşmənin ənənəvi tipləri siyahısına – yeni elitaya daxil olmaq şansı olmayan çoxluğun vəziyyətinin nisbətən pisləşməsini bildirən yeni qütbləşmə tipi əlavə edir.

Qloballaşmış iqtisadiyyatın əsas problemi onun nemətlərinin son dərəcə qeyri-müntəzəm bölüşdürülməsindən ibarətdir. Bu, gəlirlərin, işlə

təmin olunma imkanlarının, səhiyyə və təhsil xidmətlərindən istifadə etmək, idarəetmədə və sosial həyatda iştirak etmək imkanlarının qeyri-bərabər olmasında təzahür edir.

Dissertasiyada vəziyyətin bu şəkil almasının səbəbləri aydınlaşdırılır, qeyd edilir ki, qeyri-bərabərliyin müasir formalarının əsasını texnoloji inqilabın geniş vüsət almasında əhalinin ayrı-ayrı qruplarının və ayrı-ayrı ölkələrin qeyri-bərabər iştirakı təşkil edir. İndiki qloballaşma "birinci" və "üçüncü" dünya arasında qeyri-bərabərlik yaratmır, yalnız qərb sivilizasiyası çərçivəsində qeyri-bərabərliyin dərinləşməsini şərtləndirən mexanizmlərin təsirini bütün dünyaya şamil edir. Bu halda, inkişaf etmiş ölkələrin sərəncamında olan sanballı resurslar cəmiyyətin əmlak baxımından qütbləşməsinin nəticələrini zəiflətməyə imkan verirsə, dünya miqyasında müvafiq mexanizmlər yoxdur və problemin daha da kəskinləşməsinə gətirib çıxarır.

2010-cu ildə dünyanın ən varlı 20 ölkəsində orta gəlirlər dünyanın ən yoxsul 20 ölkəsindəki orta gəlirlərdən 37 dəfə artıq olmuşdur. Dünya ölkələrinin yarısında davamlı iqtisadi artımı hələ də təmin etmək mümkün olmur. Halbuki bu, yoxsulluğun azaldılması üçün ən mühüm amildir. Buna baxmayaraq, dünya üzrə başlıca tendensiya – yoxsulluğun azalmasıdır.

Beləliklə, qloballaşmanın sosial təbəqələşmə və yoxsulluğa təsiri proseslərinin təhlilini yekunlaşdırarkən, qeyd etməliyik ki, iqtisadi qloballaşma dünyada iqtisadi inkişafın obyektiv meylidir.Bundan heç kəs yaxa qurtara bilməz və bu prosesdə hər kəs iştirak etməlidir. Üstəlik, ölkənin iqtisadi inkişaf strategiyası düzgün olduqda (nümunə kimi, Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin rəhbərliyi ilə hazırlanmış, yaxın gələcəkdə ölkəmizin inkişaf etmiş ölkələr sırasına çıxmasını təmin edəcək kursu göstərmək olar), bu qloballaşma daxili islahatlara və nəticədə, əhalinin həyat səviyyəsi yüksəlişinə və yoxsulluğun azaldılmasına təkan verə bilər.

**3. Sosial qeyri-bərabərliyin və yoxsulluğun azaldılmasının hüquqi tənzimlənməsi mexanizmlərinin təhlili**

Ölkəmizdə və xaricdə istifadə olunan, yoxsulluğun və sosial qeyri-bərabərliyin hüquqi tənzimlənməsi mexanizmlərinin tədqiqi cəmiyyətin ən vacib sosial problemlərinin həllinə yönəlmiş sosial siyasət və praktikanın geniş kontekstindən irəli gəlir. İşdə, ölkəmizin elmi ədəbiyyatında az tədqiq olunmuş, sosial sferanın hüquqi tənzimlənməsi problemləri təhlil edilir. Qeyd olunur ki, ictimai həyatın müxtəlif sferalarında hüquqi tənzimlənmə öz xüsusiyyətlərinə malik olur və bunlar təhlil və qiymətləndirilmə zamanı nəzərə alınmalıdır.

Sosial sferanın, o cümlədən, sosial qeyri-bərabərlik və yoxsulluğun hüquqi tənzimlənməsi sahəsinin də özünəməxsus xüsusiyyətləri var (bax: şəkil 1):




***Şəkil 1. Sosial sahənin hüquqi tənzimlənməsinin əsas istiqamətləri***

Dissertasiya işində yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılması siyasətinin əsas mexanizmləri səciyyələndirilir: hüquqi təminat (qanunverici və normativ baza), maliyyə mexanizmi, vergi rıçaqları və stimulları, həmçinin, inzibati resurslar. İşdə vurğulanır ki, sosial münasibətlərin hüquqi reqlamentləşdirilməsi ilə bağlı məqamlar, hələ ki, mahiyyət etibarilə, bu münasibətlərin bütövlüyünə adekvat bir vahidlik təşkil etmir. Sosial münasibətlərin geniş dairəsi, o cümlədən, yoxsulluğun yumşaldılması siyasəti, sosial hüquq normaları ilə tənzimlənir. İqtisadi hüquqdan fərqli olaraq, sosial hüquq normaları ölkəmizin elmi ədəbiyyatında nisbətən az yer almışdır. Sosial hüququn predmetini məşğulluğun, əməyin və əhalinin sağlamlığının mühafizəsinin hüquqi tənzimlənməsi, sosial sığorta, sosial müdafiə, həmçinin, yoxsulluğun azaldılması sahəsində sosial müdafiə orqanlarının formalaşdırılmasının və fəaliyyətinin hüquqi tənzimlənməsi təşkil edir.

Milli, regional və yerli səviyyələrdə yoxsulluğun azaldılmasına dair Dövlət məqsədli proqramların işlənib hazırlanması, dövlət sosial büdcələrinin strukturu barədə qərarların qəbul edilməsi, sosial müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi, sosial proqramların maliyyələşdirilməsi, səhiyyə, təhsil, mədəniyyət sistemlərinin inkişaf etdirilməsi – bütün bunlar ölkə qanunvericiliyində təsbit olunmuş, yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılması strategiyasının ən vacib alətləri kimi çıxış edirlər.

Sosial müdafiə sisteminin təməlində duran sosial standart və normativlər, həmçinin, sosial zəmanətlər nəzərə alınmadan, yoxsulluğun və sosial qeyri-bərabərliyin hüquqi tənzimlənməsində istifadə edilən vasitələrin tam və düzgün qiymətləndirilməsi mümkün deyil. Dissertasiyada xüsusi olaraq qeyd edilir ki, dövlət sosial standartları vətəndaşların

Konstitusiya ilə təminat verilən hüquqlarının həyata keçirilməsini təmin edir və eyni zamanda dövlətin sosial və iqtisadi siyasətinin həyata keçirilməsində oriyentir rolu oynayırlar.

**4. Yoxsulluğun və sosial qeyri-bərabərliyin hüquqi tənzimlənməsinə dair ölkə və xarici təcrübənin xarakteristikası**

Dissertasiyada, yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılması proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi strategiyasına dair müasir ölkə və dünya təcrübəsi təhlil olunur. Müxtəlif ölkə və regionlarda yoxsulluq fərqlidir, bu səbəbdən də, onunla mübarizədə müxtəlif vasitə və mexanizmlər gərəkdir.

Tədqiqat işində, yoxsulluğun miqyaslarının nəzərəçarpan dərəcədə azaldılması üçün, yalnız, ehtiyatların əhalinin yoxsul təbəqələrinin nəfinə yenidən bölüşdürülməsinin kifayət olmadığı barədə müddəa əsaslandırılır. Hər bir dövlətdə ayrılıqda əhalinin marginal təbəqələrinin inkişaf prosesinin əsas məcrasına maksimal dərəcədə cəlb edilməsinə nail olmaq gərəkdir. Yoxsulluğun və sosial qeyri-bərabərliyin ləğv edilməsi səylərin iki istiqamətə yönəldilməsini tələb edir: bir tərəfdən, davamlı iqtisadi artım templəri təmin olunmalıdır, digər tərəfdən – "insan kapitalının" inkişafına investisiyalar qoyulmalıdır ki, bu, Azərbaycanda müvəffəqiyyətlə həyata keçirilir. İnkişafda olan ölkələrdə yoxsulluqla mübarizə sahəsində daha zəngin beynəlxalq səviyyəli təcrübə BMT çərçivəsində toplanmışdır. BMT fəaliyyətinin bu istiqaməti BMT-nin İnkişaf Proqramı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Beynəlxalq Əmək Təşkilatı (BƏT), həmçinin, BMT-nin Ticarət və İnkişaf Şurası yanında Yoxsulluqla Mübarizə üzrə Daimi Komitəsi kimi struktur və təsisatlarının fəaliyyətində aparıcı elementlərdəndir.

Aparılmış təhlil göstərdi ki, yoxsulluqla mübarizə strategiyası əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır.Belə ki, əgər əvvəllər əsas diqqət əhalinin yoxsul təbəqələrinin üzə çıxarılması məsələsinə yönəlirdisə, son onilliklərdə diqqət yoxsulluğu şərtləndirən amillər və onları dəf edən tədbirlər üzərində cəmləşdirilərək, müxtəlif ölkələrə yoxsulluqla mübarizə strategiyasının işlənib-hazırlanmasında fəal yardıma cəhd edildi.

Dissertasiyada Şri-Lanka, Lesoto, Çin, Gürcüstan, Tacikistan kimi ölkələrdə yoxsulluqla mübarizə təcrübəsi təhlil olunur. Bu təcrübənin ümumiləşdirilməsi nəticəsində, yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılmasına dair sosial siyasətin əsas elementləri və mexanizmləri ayrıca göstərilir və əsaslandırılır. Birincisi, insan resurslarının inkişaf etdirilməsi üçün, savadsızlıqla mübarizəyə, peşə hazırlığının genişlənməsinə, səhiyyənin və digər xidmət sektorlarının inkişafına sərmayə tələb olunur. Təbii mühitin qorunmasına da kifayət qədər diqqət yetirilməlidir.

İkincisi, kənd rayonlarından şəhərlərə,ələlxüsus da cavanların mühacirət miqyaslarının azaldılması naminə, daha geniş işədüzəlmə imkanlarının təminatı üçün, kənd rayonlarının infrastrukturunun inkişafına

sərmayənin böyük əhəmiyyəti vardır.

Üçüncüsü, yerli materialları və işçi qüvvəsini istifadə edən şəxsi, kustar istehsalat və artellərin yaradılmasına insanların həvəsləndirilməsi arzu edilir. Belə olarsa, faizsiz kredit alınması imkanlarının genişlənməsi böyük dəstək olardı.

Dördüncüsü, hökumətlər, diqqəti iqtisadi artım üçün əlverişli olan makroiqtisadi şəraitin yaradılması üzərində cəmləşdirməklə yanaşı, öz ölkələrində gəlirlərin bölgüsündə daha artıq bərabərliyin təmin olunmasına yönəlmiş tədbirlər də görməlidirlər.

İnkişaf etmiş ölkələrdə yoxsulluq probleminin kəskinlik dərəcəsi, şübhəsiz, nə kəmiyyət, üstəlik, nə də keyfiyyət parametrlərinə görə inkişafda olan və keçid iqtisadiyyatlı ölkələrdə əhalinin dərin marginallaşması ilə ölçüyəgəlməzdir. İşdə, AFR, Fransa, Böyük Britaniya, İrlandiya, Lüksemburq, Danimarka, Hollandiya, Belçika kimi Avropa ölkələrinin, həmçinin, ABŞ və Kanadanın yoxsulluqla mübarizə təcrübəsi təhlil olunur. Bu ölkələrdə, bu və ya digər formada, pulsuz və güzəştli tibbi xidmət, peşə hazırlığı və yenidən hazırlığı tətbiq edilir, bələdiyyə mənzillərinin tikintisinə subsidiyalar ayrılır, işsizlikdən daha çox əziyyət çəkən region və peşə sahiblərinə xüsusi iqtisadi yardım tədbirləri görülür, öz şəxsi biznesinin təşkili yolu ilə işsizlərə yardım proqramlarından istifadə olunur, ərzaq talonları verilir və s.

Bu cəhətdən, 70-ci illərin ortalarından başlayaraq, Qərbi Avropa ölkələrində yoxsulluq həddini keçmiş insanlara sosial yardım və dəstək tədbirləri kompleksini nəzərdə tutan xüsusi proqramların fəaliyyət göstərməsinin və daim yenilənməsinin əhəmiyyəti çox böyükdür. Hal-hazırda Qərbi Avropa ölkələrində "Tərəqqi" proqramı fəaliyyətdədir. Onun fərqləndirici xüsusiyyəti – "yoxsul" və "yoxsulluq" terminlərinin olmamasıdır. Onların əvəzinə "sosial baxımdan təcridolma (uzaqlaşma)" anlayışı qəbul edilmişdir.

Məsələ bundadır ki, hal-hazırda Qərbdə yoxsulluğa yalnız xalis bir kəmiyyət itkisi kimi baxılmır (fərdi gəlir səviyyəsinin enməsi). Get-gedə artan dərəcədə dərk edilir ki, yoxsulluq individdə kəskin psixoloji diskomfort törədir, çünki şəxsiyyətin sosial təcridolması, individin cəmiyyətlə əvvəlki əlaqələrinin qırılması və bunun nəticəsində adət etdiyi ünsiyyət dairəsinin kəskin surətdə dəyişməsi, dünyaya münasibətin bədbinləşməsi, əsas peşə vərdişlərinin itirilməsi kimi hallarla müşayiət olunur.

Aparılmış tədqiqat nəticəsində, dissertasiyada belə bir qənaət əldə olunur ki, həm inkişaf etmiş, həm də inkişafda olan ölkələrdə yoxsulluğun və qeyri-bərabərliyin azaldılması üçün milli strategiyalar işlənib hazırlanarkən, inkişafın kəmiyyət və keyfiyyət aspektlərini müvəffəqiyyətlə əlaqələndirməyə imkan verən 3 inkişaf prinsipi birinci dərəcəli əhəmiyyət daşıyır. Bunlar – aktivlərin bütün tiplərinə: insan (sosial), təbii (ekoloji) və istehsal (fiziki), kapitala diqqət; bölgü aspektlərinin

dinamikasının nəzərə alınması; idarəetmənin təkmilləşdirilməsi məqsədilə institusional bazanın inkişafına xüsusi əhəmiyyət verilməsidir.

Dissertasiya işində, respublikada həyata keçirilən yoxsulluğun azaldılması siyasətinin müqayisəli təhlili verilir, onun mahiyyəti, strukturu və müasir şəraitdə reallaşdırılmasının xüsusiyyətləri açıqlanır.

İşdə qeyd edilir ki, keçid iqtisadiyyatlı başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da iqtisadi qeyri-bərabərlik səviyyəsinin artması iki qrup amilin təsiri ilə əlaqədar idi. Birinci qrup amillər yeni bazar mexanizmlərinin yaradılması və cəmiyyətdə bölgü münasibətlərini kökündən dəyişmiş yeni sosial institutların fəaliyyəti ilə bağlıdır (özəlləşdirmə, qiymətlərin liberallaşması, sosial müdafiə sistemində dəyişikliklər və s.).

İkinci qrupa daxil olan amillər müasir cəmiyyətlərin hər birində iqtisadi qeyri-bərabərlik yaranmasını şərtləndirir. İqtisadiyyatın strukturunun yenidən qurulması və bölgü münasibətləri sahəsində dövlətin rolunun azalması nəticəsində sahələr üzrə, şəhər və kənd arasında, ev təsərrüfatlarının müxtəlif tipləri arasında gəlirlərin diferensiallaşması güclənmişdir.

1995-ci ildə Heydər Əliyev tərəfindən bəyan edilmiş və ardıcıl olaraq həyata keçirilən sosial yönümlü bazar iqtisadiyyatı qurmaq xətti bazar iqtisadiyyatı quruculuğu istiqamətində irəliləməsi üçün geniş imkanlar açmışdır. Xalqın rifahının yüksəlişi, yoxsulluğun azaldılması dövlətin sosial siyasətinin prioritetlərinə çevrilmişdir.

Yoxsulluğun azaldılması və iqtisadi inkişafa dair Dövlət Proqramının, Regionların sosial-iqtisadi inkişafi üzrə Dövlət Proqramının, Yoxsulluğun azaldılması və davamlı inkişafa dair Dövlət Proqramının və bir sıra sahələr üzrə proqramların həyata keçirilməsi nəticəsində, yoxsulluq səviyyəsini 1995-ci ildəki 49%-dən hal-hazırkı 7,3%-dək azaltmaq mümkün olmuşdur. İş yerlərinin sayının artırılması imkanlarının genişləndirilməsi üçün əlverişli mühitin yaradılması, qeyri-neft sektorunda gəlirlərin artması, makroiqtisadi sabitliyin qorunması, səhiyyə və təhsil xidmətlərindən bərabər istifadə imkanlarının yaradılması, infrastrukturun yaxşılaşdırılması, sosial müdafiədə ünvanlılığın artırılması, qaçqınların və məcburu köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması kimi strateji vəzifələrin həllində ciddi irəliləyişlərə nail olunmuşdur.

Yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılması sahəsində nəzərdə tutulan məqsədlərə nail olmaq üçün dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi də böyük əhəmiyyət kəsb edir. Son illərdə iqtisadi və sosial sahələrdə əldə edilmiş nəticələr göstərir ki, bu siyasət real pozitiv səmərə verir. Nazirliklər, idarələr, eləcə də yerli özünüidarə orqanları ardıcıl surətdə yenidən qurulur.

Bunlarla yanaşı, dissertasiyada aparılmış təhlil göstərir ki, misilsiz tədbirlərə baxmayaraq, sosial qeyri-bərabərlik və yoxsulluğun azaldılması problemi öz aktuallığını saxlamaqdadır, onun həlli isə – iqtisadi və so-

sial zərurət olmaqda davam edir.

**5. Respublikada sosial qeyri-bərabərliyin və yoxsulluğun azaldılması meyillərinin tədqiqi**

Yoxsulluq və sosial qeyri-bərabərlik hallarının daha dərindən tədqiqi məqsədilə, gəlir səviyyəsi ilə fərqlənən əhali qrupları arasında maddi təbəqələşmənin azalması və rifahın yüksəlişi meyilləri dissertasiyada təhlil olunur. Bu məqsədlə biz, Dövlət Statistika Komitəsinin ilbəil apardığı ev təsərrüfatlarının tədqiqatı (ETT) göstəricilərindən istifadə etdik.

2010-cu ildə vəziyyəti 1995-ci ilin müvafiq göstəriciləri ilə müqayisə etdikdə məlum olur ki, əhalinin maddi təbəqələşmə və sosial firavanlıq meyillərində qəti dönüş yaranmışdır. Son illərdə diferensiallaşma proseslərinin istiqaməti daha da mürəkkəbləşmişdir. İki yeni müsbət tendensiya müşahidə olunur – yoxsulların sayının azalması və yaxşı təmin edilmiş vətəndaşların nisbi sayının artması. Qeyri-bərabərliyin legitimləşməsi və diferensiallaşdırıcı praktikaların güclənməsi şəraitində bu müsbət meyilləri yalnız onunla izah etmək olar ki, cəmiyyətdə dəyişikliklərə uyğunlaşma inkişaf edir, yeni nəsillər iqtisadiyyatın ön səhnəsinə çıxır. Onlar islahatlar dövründə sosiallaşmış, müvəffəqiyyətlilik və fərdiyyətçilik dəyərlərinə sadiq qalmışdır. Azərbaycanda formalaşmış özünəməxsus bazar mühiti onlar üçün təbiidir, özəl sektorda məşğulluq prestijli və iqtisadi cəhətdən sərfəlidir.

Aparılan təhlil göstərir ki, yoxsulluğun əsas səbəbləri, sırasında xüsusən kənd yerlərində və kiçik şəhərlərdə məşğul əhalinin gəlirlərinin aşağı olmasını, ailələrin tərkibinin tam olmamasını, uşaqlı ailələrdə işləyənlərin ailə qayğılarının çox olmasını da göstərmək olar. Yoxsul ailələrdə 1-2 uşaq olduqda bu ailələr arasında yoxsulların sayı uşaqsız ailələrlə müqayisədə 23% çoxdur. Üç və daha çox uşaq olan tam ailələrin arasında yoxsulların sayı artıq 20% təşkil edir. Yarımçıq ailələrdə vəziyyət daha gərgindir. 3 və daha çox uşaq olan yarımçıq ailələrdə yoxsul təsərrüfatların sayı 30%-ə yaxınlaşır.

Yoxsulluğun subyektiv səbəbləri arasında insan potensialının tərkib hissələri (səhhətin pis olması, ümumi və peşə təhsilinin aşağı səviyyəsi və bunun nəticəsində əmək bazarında rəqabət qabiliyyətinin aşağı olması, sosial patologiyalar, əmək qabiliyyətinin məhdudluğu və s) səbəblər ön plana çıxır.

Qida xərclərinin nisbi payının yüksək olması dolayı yolla yoxsulluğun göstəricisidir. Təhlil göstərir ki, xərclərin strukturunda qidalanma ilə bağlı məsrəflərin nisbi payı büdcənin ən çox xərc tələb edən hissəsidir və bu hissənin həcmi əhalinin həyat səviyyəsinə adekvat göstəricidir, yəni qida xərclərinin səviyyəsi nə qədər yüksək olsa, maddi təminat səviyyəsi bir o qədər aşağı olur. Qidalanma ilə bağlı xərclərin artması neqativ haldır, çünki digər maddi nemətlərdən və xidmətlərdən istifadə imkanı azalır. Məsələn, təminat səviyyəsi ən yüksək olan 10%-lik qrupda

qida məhsullarına çəkilən xərclər ümumi xərclərin 36,8%, resursları ən az olan qrupda isə 67,3% təşkil edir.2010-cu ildə qida məhsulları alınması üçün ən çox və ən az təminatlı ailələr arasında fərq 2,5 dəfə olmuşdur.

2010-cu ildə gəlirləri ən az olan 10%-lik qrupda ət və ət məhsulları istehlakı adambaşına gəlirləri ən yüksək olan 10%-lik qrup ilə müqayisədə 1,3 dəfə; süd və süd məhsulları istehlakı 1,3 dəfə, balıq və balıq məhsulları istehlakı 1,5 dəfə, meyvə-giləmeyvə istehlakı 1,4 dəfə aşağı olmuşdur. Təhlil, həmçinin, göstərdi ki, tədqiq edilən ailələrin kateqoriyaları və qrupları üzrə maddi nemətlərin istehlak səviyyəsi əhəmiyyətli dərəcədə fərqlənir. Qeyri-ərzaq malları üçün xərclərin fond əmsalı istehlak xərcləri ilə müqayisədə daha yüksəkdir (2,7-yə qarşı 3,7), bu, qeyri-ərzaq mallarına çəkilən xərclərə görə ev təsərrüfatlarının diferensiallaşmasının daha yüksək səviyyədə olmasını göstərir. Aztəminatlı ailələr qrupunda bu xərclər istehlak xərclərinin ümumi məbləğində 22,0%, yüksəkgəlirli ailələr qrupunda isə 37% təşkil edir.

Gəlirləri aşağı olan ailələr qrupunda qeyri-ərzaq malları üçün xərclərin strukturunda xüsusi çəkisi ən yüksək olan ucuz paltar, ayaqqabı, sanitariya və gigiyena əşyaları, dərmanlar, digər tibbi mallar və evə qulluq etmək üçün bəzi predmetlərdir.Yüksəkgəlirli ailələr qrupunda paltar, ayaqqabı alınması üçün çəkilən xərclərlə yanaşı, teleradioaparatlarının, mebelin, elektrik mallarının, inşaat materiallarının alınması xərcləri daha əhəmiyyətli yer tutur. Həmin qrupun xərcləri aşağıgəlirli ailələrin analoji xərclərindən 4,2 dəfə, ev ləvazimatları üçün xərclər 7,1 dəfə, şəxsi gigiyena əşyaları və dava-dərman üçün xərclər 1,6 dəfə çoxdur (cədvəl 2).

***Cədvəl 2***

***Ev təsərrüfatlarında maddi təminat dərəcəsi üzrə əhalinin 10%-lik kənar qruplarında qeyri-ərzaq malları üçün aylıq xərclərin strukturu (ev təsərrüfatının hər üzvünə)***

| | *1 desil* | *10 desil* |
|---|---|---|
| | *%* | *%* |
| Qeyri-ərzaq mallarının alınması üçün xərclər | 100,0 | 100,0 |
| Paltar, ayaqqabı, parçalar | 30,9 | 27,0 |
| Radio-televiziya aparatları, mebel, evə qulluq əşyaları | 24,0 | 35,1 |
| Nəqliyyat vasitələri | 20,6 | 29,4 |
| Tütün məmulatı | 10,3 | 3,8 |
| Gigiyena əşyaları və digər mallar, yanacaq | 14,2 | 4,7 |

Əhalinin pul gəlirlərinin strukturu cədvəl 3-də göstərilmişdir. Gördüyümüz kimi 2010-cu ildə də ailələrin əsas gəlir mənbəyi əməkhaqqı olmuşdur. Gəlirlərin yarıdan çoxu əməkhaqqının payına düşür. Sosial transfertlərin xüsusi çəkisi bir qədər artmışdır. Pensiya ödənişləri sosial transfertlərin tərkibində ən böyük hissə təşkil edir.

*Cədvəl 3*

***Əhalinin pul gəlirlərinin strukturu (%)***

| | *1995* | *2000* | *2005* | *2010* |
|---|---|---|---|---|
| Gəlirlərin ümumi həcmi | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| O cümlədən:<br>əməkhaqqı | 46,2 | 47,2 | 48,8 | 49,1 |
| sosial transfertlər | 5,9 | 10,0 | 11,7 | 15,7 |
| pensiyalar | 4,2 | 8,0 | 9,5 | 12,8 |
| müavinətlər, təqaüdlər | 1,7 | 2,0 | 2,2 | 2,0 |
| sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər | 29,6 | 23,8 | 23,4 | 24,2 |
| mülkiyyətdən əldə edilən gəlirlər | 2,2 | 3,0 | 1,7 | 1,1 |
| sair gəlirlər | 16,1 | 17,0 | 14,4 | 9,8 |

Mülkiyyətdən əldə edilən gəlirlərlə daşınmaz əmlak alınması üçün xərclər arasındakı fərqin çox böyük olmasını da qeyd etmək olar. Məsələn, mülkiyyətdən əldə edilən gəlirlərlə sahibkarlıq gəlirləri arasındakı fərq təqribən 4,8 dəfə, əməkhaqqı hesabına gəlirlərin fərqi təqribən 3,7 dəfə çoxdur. Beləliklə, mülkiyyət və sahibkarlıq fəaliyyəti hesabına əldə edilən gəlirlər isə cəmiyyətin sosial-iqtisadi qütbləşməsinin əsl səbəbidir.

**6. Əhalinin gəlirlərinin diferensiallaşmasının variantlı proqnozlarının işlənib hazırlanması, yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılmasının hüquqi tənzimlənməsinin təkmilləşdirilməsinə dair metodiki və praktiki tövsiyələrin əsaslandırılması**

Respublikada əhalinin rifahının artması və yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılması perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə, işdə əhalinin gəlirlərinin diferensiallaşmasının və digər sosial göstəricilərin variantlı proqnozları işlənib hazırlanmışdır.

Əhalinin gəlirlərinin qütbləşməsi sahəsində müasir vəziyyətin təhlili və qiy-mətləndirilməsi göstərir ki, respublikada baş verən bazar dəyişikliklərinə uyğun olan və əsas komponentlərindən biri sosial qeyri-bərabərliyin azaldılması, əhalinin sosial müdafiəsi mexanizmləri və vasitələri olan sosial siyasətin fəallaşdırılması zəruridir.

Sosial proqnozlaşdırma ciddi sistemli formatda həyata keçirilməlidir. Məhz ona görə də işdə sosial sahənin əsas tərkib hissələri və eyni zamanda məcmu halda əhalinin sosial müdafiəsi funksiyasını yerinə yetirən göstəricilər: yaşayış minimumu və minimal əməkhaqqı, əməkhaqqı ilə gəlirlər arasındakı fərq, pensiya təminatı, sağlamlığın qorunması, fasiləsiz təhsil, mənzil-kommunal xidmətləri, sağlam həyat tərzini təmin edən rekreasiya kimi amillər proqnozlaşdırılır.

Bizim proqnozlar iki əsas metodoloji prinsip üzrə tərtib edilir:

- birincisi – minimal sosial normativlərin formalaşması və təshih edilməsi və onların dövlət tərəfindən qanunvericilik yolu ilə təmin edilməsi;

- ikincisi – sosial qeyri-bərabərliyin və yoxsulluğun azaldılması məsələlərinin kompleks şəkildə həlli yalnız təkrar bölgü mexanizmlərindən istifadə edilməsi əsasında mümkündür.

Proqnoz hesablamaları əsasında sosial göstəricilərin və Azərbaycan əhalisinin gəlirlərinin diferensiallaşma indikatorlarının inkişaf perspektivlərinin iki variantı tərtib edilmişdir. Hər iki halda yoxsulluğun və sosial qeyri-bərabərliyin səviyyəsinin azaldılması ehtimal olunur.

Bununla bərabər, "təkamül" variantı onu əsas götürür ki, proqnozlaşdırılan dövrdə respublika əhalisinin bazis dövründə maddi rifahının formalaşmasına təsir göstərmiş şərtlərin əksəriyyəti qüvvədə qalacaqdır. Buna görə də iqtisadiyyatın inkişafı, diferensiasiya, sosial sahənin inkişafı üçün resurslar kimi göstəricilərin dinamikasında müşahidə olunan qanunauyğunluqlar (müəyyən düzəlişlərlə) perspektiv dövr üçün ekstrapolyasiya edilir.

İqtisadiyyatın davamlı inkişafının təmin edilməsi, sosial gərginliyin aradan qaldırılması başqa sosial siyasət yeridilməsi zərurətini nəzərdə tutur. Bununla əlaqədar, ikinci – "mütərəqqi" proqnoz variantında ictimai istehsalın səmərəsinin yüksək artımını stimullaşdıran bölgü siyasəti nəzərdə tutulur. Bu variant milli normativlərin beynəlxalq sosial standartlara, eləcə də inkişaf etmiş ölkələrdə sosial sferanın inkişaf indikatorlarına daha da uyğunlaşdırılmasını nəzərdə tutur.

"Mütərəqqi" variant normativ xarakter daşıyır və uzunmüddətli perspektivdə respublika üçün sosial oriyentirlər kimi inkişaf etmiş ölkələrdə qərarlaşmış meyarlar, həyat səviyyəsinin və keyfiyyətinin standartları qəbul ediləcəyi halda ÜDM və sosial sahələrin artım miqyasını qiymətləndirməyə imkan verir.

Proqnoz hesablamaları aparmaq üçün tətbiq edilən ekonometrik modellər kompleksi perspektivdə sosial sahənin inkişaf göstəricilərinə nail olmaq prosesini (sxemini) tamamilə formallaşdırmağa imkan verir. Sosial sahənin inkişaf göstəricilərinin proqnozlaşdırılması sxemi aşağıdakı funksional bloklardan ibarətdir. Bu blokların hər birində proqnozun spesifik məsələləri həll edilir: 1. Demoqrafiya və əmək resursları. 2. Əməkhaqqı və sosial zəmanətlər. 3. Gəlirlər. 4. Gəlirlərin bölgüsü. 5. İstehsal. 6. Dövlət büdcəsinin sosial xərcləri.

Bu blokların hər biri də öz növbəsində daha kiçik funksional altbloklara bölünür, sonuncularda lokal məsələlər həll edilir.

Birinci blokda perspektivdə respublika əhalisinin sayı, o cümlədən məşğul əhalinin və pensiyaçıların sayı hesablanır.

İkinci blokda əməyin ödənilməsinin perspektiv qiyməti təyin edilir. Həmin bloklarda proqnoz hesablamaları, zəruri hallarda ekspert qiymətləndirmələrindən istifadə edilməklə trend modellərinin köməyi ilə həyata keçirilir.

Üçüncü blokda əhalinin gəlir göstəriciləri modelləşdirilir.

Gəlirlərin üçüncü blokda təyin edilmiş qiyməti dördüncü blokda maddi təminat səviyyəsi müxtəlif olan ailə qrupları üzrə bölüşdürülür.

Beşinci blokda ÜDM-nin perspektiv qiyməti hesablanır.

Altıncı blokda dövlət büdcəsinin sosial məqsədlər üçün xərc göstəriciləri proqnozlaşdırılır. Burada xərclərin beş tərkib hissəsi fərqləndirilir: səhiyyə, təhsil, mədəniyyət, rekreasiya və sosial müdafiə.




***Şəkil 2. Sosial inkişaf və diferensiallaşma xarakteristikalarının proqnoz hesablamalarının blok-sxemi ("təkamül variantı")***

Həll olunmalı başlıca problemlər və proqnozlaşdırmanın son məqsədinə nail olmanı təmin edən vəzifələrin mərhələləri barədə əyani təsəvvürü şəkil 2-də təsvir edilmiş sosial inkişaf göstəricilərinin proqnozunun işlənib hazırlanma sxemi verir.

"Tərəqqi" variantında proqnoz hesablamalarının çıxış nöqtəsi də verilən $K_d$ və MƏH əsasında orta əməkhaqqının müəyyənləşdirilməsindən ibarətdir. Lakin bu halda $K_d$ və MƏH kəmiyyətləri baza dövründə müşahidə edilən meyllərin və mütənasibliklərin ekstrapolyasiyası əsasında deyil, onların dinamikasının əsasına qoyulmuş hipotezadan asılı olaraq normativ qaydada müəyyənləşdirilir.

Dissertasiyada variantlar üzrə proqnoz hesablamalarının müvafiq alqoritmləri verilir və əldə edilmiş nəticələr qiymətləndirilir (cədvəl 4).

"Tərəqqi" variantında sonrakı hesablamaların ardıcıllığı "təkamül" variantındakı kimidir. Lakin, orta əməkhaqqının perspektiv qiyməti müəyyənləşdirilən haldakı kimi, "tərəqqi" variantında proqnoz dövrünün hər bir mərhələsinə rəğmən, proqnoz hesablamalarında istifadə edilən müxtəlif göstəricilər arasında struktur əmsalları normativ qaydada verilir.

*Cədvəl 4*

***"Təkamül" variantı üzrə proqnoz hesablamaları alqoritmi***

| **№** | **Hesablama düsturu** | **Hesablamanın əsasında duran tənlik** |
|---|---|---|
| Demoqrafiya və əmək resursları bloku | | |
| 1 | $N^t_z = \varepsilon^t_{z.n} \cdot N^t$ | $\varepsilon^t_{z.n} = f(t)$ |
| 2 | $N^t_p = \varepsilon^t_{p.n} \cdot N^t$ | $\varepsilon^t_{p.n} = f(t)$ |
| Əməkhaqqı və sosial zəmanətlər bloku | | |
| 3 | $z^t = f(m^t, K_{dz})$<br>$Z^t = z^t \cdot N^t_z$<br>$M^t = \omega^t_{M.m} \cdot m^t$<br>$p^t = \omega^t_{p.z} \cdot z^t$<br>$R^t_p = p^t \cdot N^t_p$ | $m^t = f(t)$<br>$K_{dz} = f(t)$<br>$\omega^t_{M.m} = f(t)$<br>$\omega^t_{M.z} = f(t)$<br>$\omega^t_{p.z} = f(t)$ |
| Əhalinin gəlirləri bloku | | |
| 4 | $d^t = \omega^t_{d.z} \cdot z^t$<br>$D^t = d^t \cdot N^t$ | $\omega^t_{d.z} = f(t)$ |
| Gəlirlərin bölgüsü bloku | | |
| 5 | $D^t = \sum_{\alpha=1}^{10} d^t_\alpha \cdot N^t_\alpha = \sum_{\alpha=1}^{10} D^t_\alpha$ | $K^t_d = f(t)$; $\sigma^{2t} = f(K^t_{dz})$;<br>$\Delta^t = f(\omega^t_{d.z})$<br>$S^{2t} = \sigma^{2t} + \Delta^t$<br>$a^t = f(d^t, S^{2t})$ |
| İstehsal bloku | | |
| 6 | $w^t = \omega^t_{w.z} \cdot z^t$<br>$W^t = \omega^t \cdot N^t$ | $z^t = f(t)$<br>$\omega^t_{w.z} = f(t)$ |
| Dövlət büdcəsindən sosial inkişaf xərcləri bloku | | |
| 7 | $b^t = \omega^t_{b.w} \cdot w^t$<br>$B^t = b^t \cdot N^t$ | $\omega^t_{b.w} = f(t)$ |
| 8 | $r^t = \omega^t_{r.w} \cdot w^t$<br>$R^t = r^t \cdot N^t$ | $\omega^t_{r.w} = f(t)$ |
| 9 | $r^t_o = \omega^t_{o.r} \cdot r^t$<br>$R^t_o = r^t_o \cdot N^t$ | $\omega^t_{o.r} = f(t)$ |
| 10 | $r^t_{zdr} = \omega^t_{zdr.r} \cdot r^t$<br>$R^t_{zdr} = r^t_{zdr} \cdot N^t$ | $\omega^t_{zdr.r} = f(t)$ |
| 11 | $r^t_k = \omega^t_{k.r}\, r^t$<br>$R^t_k = r^t_k\, N^t$ | $\omega^t_{k.r} = f(t)$ |
| 12 | $r^t_{rek} = \omega^t_{rek.r}\, r^t$<br>$R^t_{rek} = r^t_{rek}\, N^t$ | $\omega^t_{rek.r} = f(t)$ |
| 13 | $r^t_s = \omega^t_{s.r}\, r^t$<br>$R^t_s = r^t_s\, N^t$ | $\omega^t_{s.r} = f(t)$ |

"Tərəqqi" variantı üzrə prosedur hesablamaları sxemi şəkil 3-də verilir. Mütərəqqi proqnoz variantında başqa mənzərə yaranır. Bu halda bölgü münasibətləri sahəsində əsaslı dəyişikliklər nəzərdə tutulur. İqtisadiyyatın sosial yönümlü səmərəli inkişafı və onun əsasında əhalinin mad-

di rifahının yüksəldilməsi baxımından bu variant daha əlverişli görünür[1].




***Şəkil 3. Sosial inkişaf və diferensiallaşma xarakteristikalarının proqnoz hesablamalarının blok-sxemi ("tərəqqi" variantı)***

Aparılmış hesablamalar göstərdi ki, birinci variantın əsasını təşkil edən hipotezlər sosial sahənin həcminin və strukturunun, eləcə də sosial zəmanətlər və sosial qeyri-bərabərliyin azaldılması sahəsində bir o qədər də əhəmiyyətli dəyişməni təmin etmir. Beləliklə, aparılmış hesablamalar göstərir ki, birinci variantın əsasını təşkil edən hipotezlər sosial sahənin həcminin və strukturunun, eləcə də sosial zəmanətlər sahəsində təminatın bir o qədər də əhəmiyyətli olmayan dəyişməsini təmin edəcəkdir.

"Mütərəqqi variant" adambaşına ÜDM-nin və müvafiq surətdə həyat səviyyəsinin və keyfiyyətinin artırılması üçün resursların daha yüksək sürətlə artmasını təmin edəcəkdir. Bu variantda orta illik artım sürəti birinci variantın göstəricilərini orta hesabla 2,0-2,5 dəfə üstələyir.

Dissertasiya işində yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılmasının hüquqi tənzimlənməsinin perspektivlərinə, onun mexanizm və texnologiyaların təkmilləşdirilməsinə dair başlıca vəzifələr işıqlandırılır.

Xüsusi olaraq, özünü müstəqil şəkildə maddi cəhətdən təmin etmək iqtidarında olmayan zəif sosial qrupların dövlət tərəfindən daha artıq dərəcədə sosial müdafiə edilməsi zərurəti qeyd edilir. Həddən çox aşağı olan "yaşayış minimumunun həcmi" normativ göstəricisi vasitəsilə yox-

---

[1] Hesablamalarda aşağıdakı işarələrdən istifadə edilmişdir. Baş hərflərlə mütləq qiymətlər işarələnir (**N**-əhalinin sayı, **W**-ÜDM, Dövlət büdcəsinin gəliri - **B** və xərcləri - **R**, **Z**-əməkhaqqı, **D**-əhalinin pul gəlirləri), sətri hərflərlə, müvafiq olaraq, adambaşına göstəricilər, **m**-minimal əməkhaqqı. İndeksləşdirmə: **p**-pensiyaçılar, **o**-təhsil, **zdr**-səhiyyə, **k**-mədəniyyət, **rek**-rekreasiya, **s**-sosial müdafiə. Struktur mütənasiblikləri: **ε**-demoqrafik göstəricilər arasında nisbətlər (məs., $\varepsilon_{pn}$-əhalinin ümumi sayında pensiyaçıların xüsusi çəkisi); **ω**-sosial sfera göstəriciləri arasında nisbətlər (məs., $\omega_{ow}$-adambaşına ÜDM-lə Dövlət büdcəsində təhsil xərcləri); $\omega_{or}$-adambaşına Dövlət büdcəsi xərcləri ilə Dövlət büdcəsində təhsil xərclərinin nisbəti).

sulluğun qiymətləndirilməsindən imtina olunması zərurətini əsaslandırır, çünki, o, əhalinin xərcləri strukturunun dəyişməsi meyillərini və cəmiyyətdə formalaşan sosial standartları əks etdirmir. Onun istifadəsi ölkədə yoxsulluqla bağlı həqiqi vəziyyəti təhrif edir. Milli həyat keyfiyyəti standartı – ailənin həyatı üçün sosial cəhətdən məqbul olan, əhalinin əksəriyyətinə öz ölkəsində layiqli həyat sürməyə imkan verən parametrlər kompleksi, bu parametrlərin normativ göstə-ricisi kimi qəbul edilməsi və hakimiyyət orqanlarının işinin bunlara müvafiq qiymət-ləndirilməsi gərəkdir.

Tədqiqatın ümumiləşdirilmiş yekunu – yoxsulluğun və sosial-iqtisadi qeyri-bərabərliyin azaldılmasının hüquqi tənzimlənməsi perspektivləri barədə dissertantın təklif və tövsiyələri oldu. Dissertasiyada sosial sferanın hüquqi tənzimlənməsinin təkmilləşdirilməsinə dair işləyib hazırladığımız tədbirlər sistemi verilir, onun sahələrinin bazar münasibətlərinə uyğunlaşmasını sürətləndirən mexanizmlər təklif olunur, təhsil, səhiyyə, mədəniyyət, rekreasiya xidmətləri, sosial müdafiə sahəsində təklif olunan tədbirlərin qabaqcadan görülə biləcək nəticələri dəlillərlə əsaslandırılır. Prioritet təşkil edən sosial problemlərin həllinə və respublikanın sosial sferasının hüquqi tənzimlənməsinin keyfiyyətinin yüksəldilməsinə dair tövsiyələr Azərbaycanın sosial-iqtisadi inkişafına dair dövlət proqramları həyata keçirilən zaman sosial qeyri-bərabərliyin azaldılması sahəsində daha əsaslandırılmış planlaşdırma-idarəetmə qərarlarının qəbul edilməsinə xidmət edəcəkdir.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı işləri çap edilmişdir:**

1. Quliyev V.M.. İqtisadiyyatin qloballaşması şəraitində sosial bərabərsizliyin azaldılması problemləri. “Dünya iqtisadiyyatının inkişaf mərhələləri: tarixilik və müasirlik” mövzusunda Beynəlxalq konfransın materialları, Bakı, 2009, “İqtisad Universiteti” nəşriyyatı, 0,2 ç.v.

2. Гулиев В.М. К вопросу о механизме правового регулирования сокращения бедности и социального неравенства. В сборнике «Общество в условиях трансформации социально-экономической системы», ч.XV, -М., Институт правовой экономики, 2009, 0,5 ç.v.

3. Quliyev V.M. Xarici ölkələrdə yoxsulluğun və sosial bərabərsizliyin azaldılması proqramları. “Əmək və sosial problemlər” (elmi əsərlər toplusu, №5), Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək və sosial problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi, Bakı, 2009, 0,5 ç.v.

4. Quliyev V.M. Yoxsulluğun və sosial qeyri-bərabərliyin öyrənilməsinə konseptual yanaşmalar. “İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemləri” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, Az.ETKTİ və Tİ, 2010, 0,4 ç.v.

5. Quliyev V.M. Sosial inkişaf göstəricilərinin və əhalinin gəlirləri-

nin diferensiallaşmasının proqnozu məsələləri. «Завершение переходного периода в экономике Азербайджана: анализ и выводы. Проблемы формирования модели национального развития», Материалы республиканской научно-практической конференции, Баку, 2010, 0,15 ç.v.

6. Quliyev V.M. Azərbaycanda yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılması məsələləri. “Əmək və sosial problemlər” (elmi əsərlər toplusu, №1(6)), Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək və sosial problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi, Bakı, 2010, 0,5 ç.v.

7. Гулиев В.М. Проблемы сокращения социального неравенства и бедности в Азербайджанской Республике. “Региональные проблемы преобразования экономики”, Материалы Всероссийской научно-практической конференции, 26-27 октября 2010г., Махачкала, 2010, 0,5 ç.v.

8. Quliyev V.M. Анализ тенденций сокращения социального неравенства и бедности в Азербайджане. “Azərbaycan-Macarıstan mədəniyyətlərinin dialoqu” mövzusunda Beynəlxalq elmi konfransının materialları, Macarıstan Elmlər Akademiyası, Budapeşt, 2010, 0,8 ç.v.

9. Гулиев В.М. Опыт правового регулирования сокращения бедности и социального неравенства в развитых странах. В сборнике «Общество в условиях трансформации социально-экономической системы», ч.XVI, -М., Институт правовой экономики, 2010, 0,4 ç.v.

10. Quliyev V.M. Azərbaycanda yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılması problemləri. “Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər, inkişaf meyilləri” mövzusunda Respublika elmi-praktiki konfransının materialları, Bakı, AMEA İqtisadiyyat İnstitutu, “Avropa” nəşriyyatı, 2010, 0,2 ç.v.

11. Quliyev V.M. Azərbaycanda yoxsulluğun və sosial qeyri-bərabərliyin azaldılması problemləri. “Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər, inkişaf meyilləri” mövzusunda Respublika elmi-praktiki konfransın materialları, Bakı, AMEA İqtisadiyyat İnstitutu, “Avropa” nəşriyyatı, 2010, 0,2 ç.v.

12. Quliyev V.M. Respublika əhalisinin həyat keyfiyyəti göstəricilərinin təhlili. “Müstəqillik illərində Azərbaycanda həyata keçirilən sosial siyasət və onun nəticələri” mövzusunda elmi-praktiki konfransın materialları, 2011, 150 səh., 0,15 ç.v.

13. Quliyev V.M. Respublika əhalisinin həyat keyfiyyətinin yüksəldilməsində dövlətin rolu. // İqtisad elmləri: nəzəriyyə və praktika, № 4, ADİU, 2011, 0,6 ç.v.

14. Гулиев В.М. «Проблемы анализа качества жизни населения республики». Теория и практика общественного развития. 2012, № 3, с.317-321, 0,6 п.л.

**Гулиев Вюсал Мубариз оглы**

**Совершенствование правового регулирования сокращения социального неравенства и бедности в Азербайджанской Республике**

## РЕЗЮМЕ

В диссертационной работе теоретически исследованы проблемы социального неравенства и бедности в республике. Разработаны методологические подходы и практические рекомендации по совершенствованию правового регулирования бедности и социального неравенства в Азербайджане с учетом задач формирования социально ориентированной национальной хозяйственной системы республики.

Впервые в республике проведен анализ социально-экономического положения групп населения с различным уровнем материальной обеспеченности, получена оценка влияния экономико-демографических факторов на уровень социально- экономического расслоения населения.

На основе выявленных автором особенностей хода реализации национальных концепций и программ в области социального развития и сокращения бедности, разработаны рекомендации по совершенствованию правовой составляющей этих программ.

Впервые выявлены функциональные зависимости для описания динамики и осуществления прогнозных расчетов характеристик дифференциации населения. Разработана и экспериментально апробирована схема вариантных прогнозных расчетов, позволяющая учесть современные требования к исследованию и прогнозированию благосостояния.

Осуществлены два варианта прогнозных расчетов показателей социального развития и дифференциации.

Разработаны рекомендации по совершенствованию правового регулирования сокращения бедности и социального неравенства, в которых определены меры экономического, социального и институционального характера, позволяющие получить качественную оценку, происходящих в этой области преобразований.

**Guliyev Vusal Mubariz ogli**

## Improvement Of Legal Regulation Of Social Inequality And Poverty Reduction In The Azerbaijan Republic

## SUMMARY

Dissertational work provides a theoretical investigation of the problems of a social inequality and poverty in republic. Methodological approaches and practical recommendations on how to improve the legal regulation of poverty and a social inequality in Azerbaijan considering the problems of formation of socially focused national economic system in the republic are developed.

For the first time in republic the analysis of economic and social situation of population groups with various levels of material security is carried out; an estimate of the influence of economic and demographic factors on the population's social stratification level is received.

Based on the author identified the features of the implementation of national policies and programs in the field of social development and poverty reduction Based on the national concepts' realization course features revealed by the author and programs in the field of social development and poverty reduction, recommendations about improvement of a legal component of these programs are developed.

For the first time functional dependences for the description of dynamics and realization of forecasting calculations of population differentiation characteristics are revealed. The scheme of the alternative forecasting calculations is developed and experimentally approved, which allows considering modern requirements to research and welfare forecasting. Two versions of forecasting calculations of social development indicators are carried out.

Priorities of the social policy directed on the further poverty and social inequality reduction are defined. Recommendations on improvement of legal regulation of poverty and social inequality reduction are developed. They define the measures of the economic, social and institutional nature that would provide a qualitative assessment of the transformations occurring in this area.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ГУЛИЕВ ВЮСАЛ МУБАРИЗ ОГЛЫ**

# СОВЕРШЕНСТВОВАНИЕ ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ СОКРАЩЕНИЯ СОЦИАЛЬНОГО НЕРАВЕНСТВА И БЕДНОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Специальность: 5308.01 – Общая экономика**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени доктора философии по экономике**

**Баку – 2013**